# Stalinin ailə sirləri

## və ya rəhbərin neçə uşağı olub?

II yazı

**Hələ Stalin kimi məşhurlaşmayan İosif Cuqaşvili inqilabi fəaliyyətinin ilk illərində Çar Rusiyasının hüquq mühafizə orqanlarının diqqətini öz üzərinə çəkməyi bacarır. 1905-ci ildə Bakının Balaxanı neft mədənlərində fəhlələr arasında təşviqat, təbliğat fəaliyyətlərinə görə neft maqnatlarının qəzəbinə tuş gəlir və onu öldürüb neft quyularına atmaq istəyirlər. Lakin böyük Məmməd Əmin Rəsulzadənin səyi nəticəsində İosif əvvəlcə ölümün caynağından xilas edilir, sonra isə həbsdən qaçırılaraq öz qohum-əqrəbasının evində gizlədilir. Lakin sonrakı inqilabi fəaliyyətlərinə görə İ.Cuqaşvilini 1908-ci ilin sonlarında həbs edirlər. 1909-cu ilin əvvələrində onu Solvıçeqodsk şəhərinə sürgün edirlər. Bu şəhərə o, iki dəfə sürgün edilir. Belə ki, ilk dəfə 1909-cu ilin 27 fevralından 24 iyununa kimi orda sürgündə olur. Sonralar o, qaçır, lakin həbs olunaraq yenidən adı çəkilən şəhərə qaytarılır.**

27. 10.1910-cu il tarixdən 1911-ci ilin iyuluna qədər onun sürgün həyatı davam edir. Elə həmin müddətdə İosif özündən 4 yaş böyük olan Mariya Kuzakova adlı dul qadının evində yaşamağa başlayır. Adı çəkilən qadının əri rus-yapon müharibəsi (1904-1905-ci illər) iştirakçısı olmuş, 1906-ci ildə müharibədə aldığı yaralardan vəfat etmiş və 5 uşağı yadigar qalmışdı. İosif bu evdə yalnız kirayişin kimi deyil, həm də M.Kuzakovanın mənşuqu olur. 1911-ci ildə İosifin sürgün müddəti bitir və çar jandarmasının qəti əmri ilə o, Solvıçeqodskdan yola salınır. Həmin ilin sentyabrın 1-də M.Kuzakova oğlan uşağı dünyaya gətirir. Uşağa anası tərəfindən Konstantin adı verilir. Amma ilk vaxtlar uşaq nə xaç suyuna salınır, nə də doğru-dürüst doğum şəhadətnaməsi ala bilir. Şəhərin kilsə xadimi atası bəlli olmayan uşağı xaç suyuna salmaqdan imtina edir. Ona görə də, körpə Kostyanı başqa şəhərdə - Kotlas şəhərinin "Stefaniyevski" kilsəsində xaç suyuna salınır, anasının təkidi ilə uşağa vəfat etmiş ərinin adı, soyadı verilir. Uşağın doğum şəhadətnaməsinə Konstantin Stepanoviç Kuzakov yazılır.

Orta təhsilini doğma şəhərində alan Konstantin, 1927-ci ildə Leninqrad Xalq Təsərüfatı İnstitunun (LXTİ) fəlsəfə şöbəsinə qəbul olur. 1930-cu ildə oranı əla qiymətlərlə bitirərək, ali təhsil ocağında müəllim kimi saxlanılır. O, "Dialektik materializm"-dən dərs deməyə başlayır.1931-ci ildə K.Kuzakov NKVD (Xalq Daxili İşlər Komisarlığı) əməkdaşları tərəfindən atasının Stalin olması ilə bağlı susmaq "əmri" alır.

1932-1939-cu ildə LXTİ-da dossent, kafedra rəisi vəzifələrinə irəli çəkilir, eyni zamanda Ümum İttifaq Kommunist Partiyasının (ÜİKP) Leninqrad vilayət komitəsində lektor (mühazirəçi) qrupuna da üzv olur. 1940-cı ildə Moskvaya ÜİKP-nın "Təbliğat və təşviqat" şöbəsinə gətirilir, bununla yanaşı 1947-ci ilə qədər Ali Partiya Məktəbində mühazirələr oxuyur. Müharibə zamanı qarış-qarış cəbhələri gəzərək hərbi müxbirlik edir. "I dərəcəli Vətən" və "Qırmızı ulduz" ordenlərinə layiq görülür.

1946-1947-ci illərdə SSRİ Kinemotoqrafiya Nazirinin müavini, 1947-1954-cü illərdə "Mosfilm" kinostudiyasının ssenari-redaktə şöbəsinin baş redaktoru, 1954-1955-ci illərdə SSRİ Kinemotoqrafiya Nazirliyin Baş İdarəsinin rəisi, 1955-1959-cu illərdə "İskustvo" nəşriyyatının direktoru, 1959-1987-ci illərdə SSRİ Dövlət Teleradio Komitəsində (TK) Baş idarə rəsisi, TK-i sədrinin müavini, ədəbi-dram proqramlarının baş redaktoru vəzifələrində çalışır, eyni zamanda TK-i kollegiyasının üzvlərindən biri olur. 1987-ci ildə təqaüdə çıxır. Ömrünün son illərində atasının kimliyi barədə qəzet-jurnallara müsahibələr verir. 1996-cı ildə vəfat edir və Moskvanın "Yasenevsk" qəbristanlığında dəfn olunub.



K.Kuzakovun 1935-ci il təvəllüdlü Vladimir adında oğlu var. O, Təbiətşünaslıq və Texniki Tarix İnstitutunda böyük elmi işçi kimi çalışır.

1912-ci ildə artıq Cuqaşvili kimi deyil, adı dillər əzbəri olan, bolşeviklərin avanqard inqilabçılarından biri Stalin 1914-cü ildə yenidən sürgünə göndərilir. Bu dəfə onu Krasnoyarsk vilayətinin cuzi əhalisi olan Kureyka kəndinə sürgün edirlər.

Orada o, əvvəlcə İvanovlar evində, sonra isə Perepıgina ailəsinin evində yaşayır.

Diqqət çəkən məqam odur ki, Perepıgina ailəsində ailə başçları vəfat etdiyindən, ailənin rəhbərliyini 14 yaşlı Lidiya Perepıgina öz üzərinə götürmüşdü. Onun özündən başqa 6 qardaş-bacısı vardı. Tezliklə Lidiya ilə İosifin arasında "sevgili" münasibəti yaranır. Lidiya hamilə qalaraq oğlan uşağı dünyaya gətirir. Tezliklə Stalinin jandarmlar həbs edir. Lakin Stalin yazılı and içir ki, Lidiyanın 16 yaşı (1830-cu ildə Çar Rusiyasında nikaha daxil olma yaşı 16 idi) tamam olan kimi onunla evlənəcək. Bundan sonra onu sərbəst buraxırlar, lakin tezliklə uşaq xəstəlikdən vəfat edir. 1916-cı ilin sonlarında Stalin sürgündən qaçır. 1917-ci ilin əvvəlində isə Lidiya ikinci oğlunu dünyaya gətirərək, ona Aleksandr adını verir. Bununla da Stalinin "sibirli oğlu" dünyaya göz açır. Sonralar Lidiya Stalini I Dünya Müharibəsində həlak olmuş hesab edir, çünki o dövrdə sürgündən qaçanların çoxu cəbhəyə qaçır və ya hökumət nümayəndələrinə könüllü olaraq cəbhəyə getmək istəklərini bildirirdilər. Bir müddət sonra Lidiya kənd sakini olan balıqçı Yakov Davıdovla ailə həyatı qurur və körbəyə yeni ərinin soyadına yazdırır.

Lidiya vəfasız "sevgilisindən" birdə "Böyük Oktyabr" inqilabından sonra xəbər tutur. O da, şəkildən. Stalin sibirli oğlundan xəbərdar olur, hətta uşağın 4 yaşı olanda, onu götürmək istəyir, lakin alınmır. 1934-cü ildə o, yenidən oğluna sahib olmaq üçün cəhd göstərir, amma bu xəbəri alan Aleksandr sibir meşəsinin dərinliklərinə qaçaraq gizlənir.

1938-ci ildə Stalinin sibirli oğlu orduda xidmətə başlayır. O, sıravi əsgərdən mayor rütbələrinə qədər yüksəlir, qəhramanlıqlıq, şücaət göstərərək müharibədən üzü ağ çıxır, bir necə orden-medalla təltif olunur. Müharibədən sonra o, ordu sıralarında qalaraq, xidmətini davam etdirir. Hətta həyatında ikinci dəfə müharibəyə - Koreyaya göndərilir. Elə ata Stalin məhz bu zaman sonuncu - 3 dəfə sibirli oğlunun axraşına çıxır. Lakin onun axtarışına belə cavab verilir - "1946-cı ildə İttifaq ərazisində belə bir şəxs tapılmır".

1950-1953-cü illərdə Koreya müharibəsində də iştirak edir, bəxt sibirli şəhzadənin üzünə gülür və o, yenə amansız müharibədən sağ çıxır.

1953-cü il martın 5-də "xalqlar ata"sı qəfildən vəfat edir. Atasının ölümündə bu qara bulud Aleksandrın baş üzərində də iz qoyur.

Rəhbərin ölümündən sonra qərar verilir ki, ali təhsili olmayan zabitlər ordudan ixtisar olunsun. 1955-ci ildə sibirli "Stalini" də ordudan ixtisar edirlər. O, böyüdüyü doğma yurduna qayıdaraq zəhmətkeş sovet vətəndaşlaşı kimi müxtəlif işlərdə çalışır. Aleksandr hələ müharibə dövründə Evdokiya adlı bir qızla ailə həyatı qurmuş, onların 1941-ci ildə Edik, 1946-cı ildə Valeri(körpəliyində ölüb), nəhayət Pxenyanda 1948-ci ildə Yuri adlı oğulları dünyaya gəlib.

Aleksandrın anası L.Perepıgina 1987-ci ildə, özü isə 1997-ci ildə vəfat edir. Onun böyük oğlu Edik də vəfat edib. Stalinin birbaşa varislərində nəvəsi Yuri qalıb. Hal-hazırda elə öz doğma yurdunda yaşayır və mühəndis kimi çalışır. Yurinin 3 oğlu və 4 nəvəsi var.

Nikita Xruşovun hakimiyyətə gəlməsi ilə Stalinin şəxsiyyətə pərəstişi aradan qaldırılması və onun "fəalliyyətləri" üzə çıxarılmağa başlanılır. 1956-cı ildə DTK-nin katibi İvan Serov Stalinlə bağlı gizli arxivləri, məktub yazışmalarını N.Xruşova təqdim edir. Həmin sənədlərdə ölmüş rəhbərin 1914-1916-cı illərdəki sürgün zamanı Lidiya Perepıgina ilə münasibətindən və ondan dünyaya gətirdiyi oğlundan söhbət açır. Bunu İ.Serovun 4 iyul 1956-cı il məruzəsi olan sənəd təsdiq edir. Sələfinin gizli həyatından xəbərdar olduqdan sonra Xruşov xalq düşməni elan etdiyi Stalinin sibirli varisi ilə bağlı sənədləri 50 il məxfiləşdirir.

**Yalnız 2006-cı ildə əvvəlcə tarixci Aleksey Boqomolov, sonra isə Boris İlizarovun araşdırmalarından sonra bu barədə ilk dəfə, mətbuatda yazılar dərc edildi, sənədli filimlər çəkildi, nəhayət 2016-cı ildə rəhbərin ikinci rəsmi oğlu Vasili Stalindən olan Aleksandr Burdonski (Stalinin nəvəsi) ilə Yuri Davıdovun DNT-ri tutuşdurularaq sübuta yetirildi ki, sonuncu 99% Stalinin genlərini daşıyır, yani Aleksandr Davıdov xalqlar atasının oğludur, Yuri isə nəvəsidir!**

**Ardı var...**

**Abdulla İsmayıloğlu**